*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 61-65* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.61*

# Patriarxal cəmiyyətə etirazın bədii təsviri: Təhminə, Emma Bovari, Bihter və Anna Karenina obrazlarının gender perspektivindən təhlili

**Dilarə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: aliyeva.dilara724@yandex.ru

**Annotasiya.** Bu məqalədə Anarın "Beşmərtəbəli binanın altıncı mərtəbəsi", Qustav Floberin "Madam Bovari", Halit Ziya Uşaklıgilin "Aşk-ı Memnu" və Lev Tolstoyun "Anna Karenina" romanlarındakı qadın obrazları gender perspektivindən müqayisə edilir. Bu obrazların müqayisəsi onların bənzər faciəvi talelərini və fərqli sosial, mədəni kontekstlərdəki duruşlarını anlamağa imkan verir. Məqalədə qadın obrazlarının psixoloji dünya görüşü, sevgi və ailə münasibətlərinə baxışları, habelə cəmiyyətin bu qadınlara yanaşması təhlil olunur. Təhminə, Emma Bovari, Bihter və Anna Karenina kimi qadın obrazları ilə bədii ədəbiyyatda cəmiyyətin mənəvi strukturundakı patriarxal dəyərlər və fərdi psixologiya, qadın azadlığı, sevgi və ailə münasibətləri kontekstində maraqlı psixoloji portretlər vasitəsilə təqdim edilir.
**Açar sözlər:** psixoloji ziddiyyət, cəmiyyət, feminist tənqid, azad qadın modeli

**Məqalə tarixçəsi:** göndərilib –17.02.2025; qəbul edilib – 28.02.2025

# Artistic depiction of protest against patriarchal society: a gender-based analysis of the characters Tahmina, Emma Bovary, Bihter, and Anna Karenina

**Dilara Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: aliyeva.dilara724@yandex.ru

**Abstract.** This article presents a gender-based comparative analysis of the female characters in Anar's "The sixth floor of a five-storey building", Gustave Flaubert's "Madame Bovary", Halit Ziya Ushakligil's "Aşk-ı Memnu", and Leo Tolstoy's "Anna Karenina". The comparison of these characters allows for an exploration of their similarly tragic fates and the ways they confront different social and cultural contexts. The article examines the psychological outlooks of these women, their perspectives on love and family, as well as societal attitudes toward them. Through the characters of Tahmina, Emma Bovary, Bihter, and Anna Karenina, the study offers compelling psychological portraits that reflect patriarchal values within the moral structure of society and individual psychology, particularly in the context of women's liberation, love, and family dynamics.
**Keywords:** psychological conflict, society, feminist criticism, free woman archetype

**Article history:** received – 17.02.2025; accepted − 28.02.2025

## Giriş / *Introduction*

Anarın “Beşmərtəbəli binanın altıncı mərtəbəsi”, Qustav Floberin “Madam Bovari”, Halid Ziya Uşaklıgilin “Aşk-ı Memnu”, Lev Tolstoyun “Anna Karenina” romanlarındakı əsas obrazlar dünya ədəbiyyatında qadın psixologiyasının, eşq və ailə münasibətlərinin mürəkkəbliyini əks etdirən parlaq nümunələrdir. Bu obrazlarla müəlliflər, qadın psixologiyası, cəmiyyətlə münasibət, məhəbbət və ailə mövzusunda müxtəlif dövrlərin və coğrafiyaların oxşar narahatlıqlarını ifadə edir. Onlar bir tərəfdən qadının azadlıq arzusunu simvolizə edərkən, digər tərəfdən bu arzu ilə reallıq arasındakı uçurumun yaratdığı faciənin simasına çevrilirlər. Bu obrazlar dünya ədəbiyyatında qadın qəhrəmanların daxili dünyasını, cəmiyyətlə toqquşmasını və sevgi münasibətlərində yaşadıqları ziddiyyətləri əks etdirən dörd parlaq psixoloji portretdir.

## Əsas hissə / *Main part*

Halit Ziya Uşaklıgil türk realist ədəbiyyatının və roman janrının banilərindən biri sayılır. O, xüsusilə Servet-i Fünun dövründə yazdığı əsərlərlə Osmanlı ədəbiyyatını Avropa realizminə və naturalizminə yaxınlaşdırmışdır. “Aşk-ı Memnu” Halit Ziyanın ən tanınmış və tənqidi baxımdan ən çox müzakirə olunan romanıdır. Əsər İstanbulun yüksək təbəqəsinə mənsub bir ailədə yaşanan mənəvi dağınıqlığı və cəmiyyətdəki əxlaqi ziddiyyətləri əks etdirir. Roman, Qərb təsirli ədəbiyyatın Osmanlı cəmiyyətinə uyğunlaşdırılmasında ilk uğurlu sintezlərdən biri hesab olunur. Bihter romandakı mərkəzi qadın obrazıdır. Daxili təlatümlər, emosional boşluq və cəmiyyətdəki ikiüzlülüklə üzləşən Bihter, bir tərəfdən azad olmaq istəyir, digər tərəfdən isə cəmiyyətin qoyduğu sərhədlərlə mübarizə aparır. Bihterin faciəsi emosional boşluqla sosial rol arasında qalmasından qaynaqlanır. Onun üçün sevgi – bir qadın olaraq özünü ifadə etmənin yeganə yoludur. Amma Behlülün onu sadəcə bir ehtiras obyekti kimi görməsi və ailə strukturlarının sərhədləri Bihterin özünü dəyərsiz hiss etməsinə səbəb olur. *“Bihter artıq sevilmədiyini hiss edirdi. Sevgisiz bir həyatda yaşamağa davam etmək, ona ölümü xatırladırdı” [4].* Əsərdə qadın obrazı həm arzu, həm də günahın daşıyıcısı kimi təqdim olunur. Bihterin intiharı – patriarxal sistemin qadına nəfəs vermədiyi bir dünyada çıxılmazlığın simvoludur.

Qustav Flober XIX əsr fransız ədəbiyyatının ən mühüm simalarından biri, realizm cərəyanının əsas təmsilçilərindən sayılır. Floberin “Madam Bovari” romanı realist ədəbiyyatın manifesti sayılır. Floberin dili və yazı texnikası müasir romanın inkişafına ciddi təsir göstərmiş, onun “impersonal narration” (şəxssiz nəql) texnikası sonralar Ceyms Coys və VirjiniaVulf kimi müəlliflərin təhkiyə texnikasında əhəmiyyətli rol oynamışdır. Romanın mərkəzində Emma Bovari adlı bir qadının həyatının mənəvi və psixoloji faciəsi durur. Flober romanda burjuaziya təbəqəsinin riyakarlığını, mənəviyyatsızlığını və həyatı yalnız maddi dəyərlərlə qiymətləndirməsini tənqid edir. Emma Bovari bu təbəqənin həm məhsulu, həm də qurbanıdır. Emma Bovari obrazı XIX əsr qadınının iç dünyasında yaşadığı azadlıq arzusu ilə cəmiyyətin qoyduğu sərt normativlər arasında yaranan ziddiyyəti simvollaşdırır. O sevmək və istənilmək, şəhvət və diqqət, romantika və maddi rifah arasında bir seçim edə bilmir. Emmanın arzuları, ehtirasları daim patriarxal qaydalarla qarşıdurmaya girir. Bu aspektdən roman feminist tənqid üçün zəngin material təqdim edir. Emma Bovari qəhrəman olaraq, romantik ədəbiyyatın yaratdığı illüziyaların qurbanıdır. *“Emma özünü başqa bir həyat üçün doğulmuş hesab edirdi. O, evliliyin xoşbəxtlik gətirəcəyini düşünmüşdü, amma evlilik onun üçün təkcə cansıxıcı bir gündəlik idi” [2, s.178].* O, evliliyi və sevgini yüksək emosional bir yaşantı kimi gözləyir, lakin həyatın gerçək siması ilə üzləşdikdə ruhən qopur. Emmanın faciəsi yalnız eşqdə deyil, qadının sosial sistemdə idealist gözləntilərlə gerçəklik arasındakı boşluqda boğulmasıdır. Flober burada qadının emosional və sosial təcridini kəskin realist dillə verir.

“Madam Bovari”, sadəcə bir xəyanət hekayəsi deyil, bu roman qadın subyektivliyinin boğulması, cəmiyyətin qadına qarşı ikili standartları, və mədəniyyətin fərd üzərindəki məhdudlaşdırıcı təsirləri haqqında dərin bir sosial psixoloji təhlildir. Emma Bovari, yalnız bir obraz deyil, o, qadın arzularının və həyata dair gözləntilərinin mədəni patriarxatla toqquşduğu bir məkanın simvoludur.

Lev Nikolayeviç Tolstoy dünya ədəbiyyatının ən böyük nümayəndələrindən biridir. “Anna Karenina” romanı Tolstoyun realist yazı üslubunun parlaq nümunəsidir. Anna Karenina obrazı dünya ədəbiyyatında dərin psixoloji təhlili və əxlaqi-fəlsəfi problematikası ilə seçilən ən məşhur ədəbi nümunələrdən biridir. Bu əsər təkcə bir sevgi və xəyanət hekayəsi deyil, həm də insanın cəmiyyətlə, ailə ilə, vicdanla və öz daxili aləmi ilə mübarizəsini əks etdirən çoxqatlı bir romandır.

Anna Karenina obrazı, təkcə XIX əsr rus qadınının faciəsini deyil, həm də müasir dövrdə qadın azadlığı, sevgi və sosial məhdudiyyətlər kimi məsələlərin aktuallığını qoruyub saxlayır. Tolstoyun bu obraz vasitəsilə təqdim etdiyi suallar və dilemmalar, onu ədəbiyyatın əbədi mövzularından biri halına gətirmişdir. Onun daxili dilemması, bir tərəfdən sevgi və azadlıq arzusu, digər tərəfdən isə analıq borcu və cəmiyyətin qınağı arasında qalması roman boyu inkişaf etdirilir. Annanın yaşadığı əzab, qeyri-sabit psixoloji vəziyyəti və nəticədə yaşadığı faciə, onu sadə bir “xəyanətkar qadın” stereotipindən ayıraraq mürəkkəbləşdirir. Əsərin əvvəlində o, cəmiyyətin qəbul etdiyi qaydalar daxilində yaşayan bir qadın kimi təqdim olunur. Lakin sevgiyə və ehtirasa meyli, onun daxili boşluğunu doldurmaq istəyi onu ailə həyatını dağıdacaq qərarlar verməyə sövq edir. Annanın cəmiyyətlə toqquşması əsərin əsas konfliktlərindən biridir. O, ailəli bir qadın olaraq sevgilisini – Aleksandr Vronskini seçdiyinə görə cəmiyyət tərəfindən qınanır, tənha qalır və sosial şəkildə “ölür” – hələ fiziki ölümündən əvvəl. Nəhayət, Anna öz psixoloji gərginliyi ilə bacarmayaraq intihar edir. Bu final təkcə onun fərdi faciəsi deyil, həm də cəmiyyətin sərt normativ qaydalarının və patriarxal münasibətlərin bir nəticəsi kimi qiymətləndirilə bilər. Anna Karenina öz sevgi seçiminin ardınca gedir, lakin bu cəhd, sosial qınaq və qadına qarşı tətbiq olunan əxlaqi qəddarlıqla üzləşir. O nə ailədə, nə də cəmiyyətdə yer tapa bilir. *“Əgər heç kəsin xoşbəxtliyi üçün yaşamaq mümkün deyilsə, onda öz xoşbəxtliyimi tapmağa çalışmalıyam. Lakin mən artıq gecikmişəm” [6].* Annanın “gecikmişəm” etirafı onun psixoloji sarsıntısını və çıxılmaz vəziyyətin doğurduğu böhran halını göstərir. Onun faciəsi, qadının şəxsi arzularını həyata keçirmək istədiyi zaman qarşılaşdığı sistemli təcrid və sosial linçin nəticəsidir.

Anarın “Beşmərtəbəli binanın altıncı mərtəbəsi” əsərindəki Təhminə obrazı, Azərbaycan ədəbiyyatında qadın kimliyinin və cəmiyyətdə qadına olan münasibətin ədəbi inikası baxımından mühüm bir nümunədir. Bu obraz, həm güclü qadın kimliyini təmsil edir, həm də bu gücün cəmiyyət tərəfindən necə cəzalandırıldığını göstərir. Gender perspektivindən yanaşdıqda, Təhminə obrazı patriarxal sistemin qadına qarşı qoyduğu çərçivələrə qarşı bir üsyanı, lakin bu üsyanın nəticə etibarilə faciə ilə sonlanmasını əks etdirən simvoldur. Gender nəzəriyyəsi bu tip obrazların cəmiyyətdəki gender rollarını necə əks etdirdiyini və ya onlara qarşı necə çıxış etdiyini araşdırır. Təhminə müasir, təhsilli, öz fikri və iradəsi olan qadın kimi təqdim olunur. Onun qəhrəmanla (yəni müəllifin alter egosu ilə) münasibəti sevgi üzərində qurulsa da, bu münasibət cəmiyyətin təsdiqləmədiyi “evli qadın – subay kişi” modelinə əsaslanır. Bu hal Təhminəni ənənəvi ailə dəyərlərinə qarşı çıxan biri kimi təqdim edir. O, sevgi naminə ailəsini tərk edir, bu isə patriarxal kontekstdə qadının “müqəddəs analıq və fədakar arvad” obrazına qarşı çıxması deməkdir.

Anarın əsərində Təhminə obrazı bir tərəfdən müstəqil qadın idealı kimi verilsə də, digər tərəfdən kişi qəhrəmanın baxış bucağından təqdim olunur. Laura Mulveyin irəli sürdüyü “male gaze” nəzəriyyəsinə görə, qadınlar çox vaxt kişilərin istək və fantaziyalarına uyğun təsvir olunur. Təhminə də bəzən ideallaşdırılır, bəzən də emosional olaraq qeyri-sabit və “başa düşülməz” kimi göstərilir. Bu isə onun bir subyekt kimi deyil, kişi qəhrəmanın həyatında bir “təcrübə” kimi mövcud olmasına səbəb olur. Təhminənin qəhrəmandan ayrılması və faciəvi ölümü (və ya yox olması) onun azadlıq istəyinin

və öz seçimini etməsinin cəzası kimi yozula bilər. Patriarxal ədəbiyyatda tez-tez rast gəldiyimiz kimi, sərbəst qadın obrazları ya cəmiyyətdən təcrid olunur, ya da həyatını itirir. Onun "azad qadın" ifadəsi ilə özünü təqdim etməsi, patrixal cəmiyyətin qadına yüklədiyi "ana", "arvad", "qadınlıq" rollarını rədd etdiyini göstərir. *"Mən azad qadınam, Muxtar! Mən heç vaxt istəmədiyim bir adamla yaşamamışam. Heç vaxt mənə göstərilən rolu oynamaq istəməmişəm" [1, s.87].* Təhminənin azad seçim iddiası, eyni zamanda sosial münasibətlərin sərt reaksiyası ilə qarşılaşır. Onun faciəsi – cəmiyyətin qəbul edə bilmədiyi qadın iradəsinin boğulmasından qaynaqlanır. Təhminə, ailə və ana obrazı ilə bağlı cəmiyyətin qoyduğu stereotipləri aşaraq şəxsi xoşbəxtliyini seçən bir qadındır. Onun boşanması və sevgisi naminə ailəsindən imtina etməsi, patriarxal sistemin "müqəddəs analıq", "fədakar qadın" arxetiplərinə qarşı yönəlmiş bir addımdır. Cəmiyyətin qadından gözlədiyi "itaətkar arvad" roluna qarşı çıxması onu ictimai baxışda günahkar və əxlaqsız kimi təqdim edir. Judith Butlerin performativ gender nəzəriyyəsinə əsasən, gender kimliyi ictimai performansdır və Təhminə bu performansı pozaraq, qadın üçün müəyyən olunmuş ssenaridən kənara çıxır. Təhminə obrazı Azərbaycan ədəbiyyatında qadının azadlıq və sevgi uğrunda apardığı mübarizənin simvolik ifadəsidir. Gender perspektivindən yanaşdıqda, bu obraz patriarxal cəmiyyətin qadına yönəlik qəliblərinin pozulması və bu pozuntunun yaratdığı sosial və emosional fəsadların bədii təcəssümüdür. Təhminə – həm azad olmaq istəyən qadının, həm də bu azadlıq uğrunda cəzalandırılan fərdin simvoludur.

Bu dörd qadın obrazının formalaşdığı sosial-mədəni mühitlər onlara verilən ictimai rolu müəyyən edir. Emma Bovari XIX əsr Fransasında burjuaziya əxlaqını, Bihter Osmanlının modernləşmə prosesini, Anna Karenina Rusiya aristokratiyasını, Təhminə isə Sovet sonrası Azərbaycanın şəhər ziyalı mühitini təmsil edir. Bu obrazlar hər biri müəyyən dərəcədə cəmiyyətin qadına qoyduğu sərhədləri aşmaq istəyir. Obrazların ortaq cəhəti ondan ibarətdir ki, onlar sevgi və ailə dəyərləri arasında dərin daxili ziddiyyətlər yaşayırlar. Təhminə evli olmadığı halda cəmiyyətin qadına baxış bucağından əziyyət çəkər, Emma və Bihter evli olduğu halda evlilikdə aradıqları sevgini tapmadıqları üçün kənara çıxırlar. Anna Karenina sevgi naminə ailəsinə, sosial statusuna və cəmiyyətin qəbul etdiyi qadın modelinə qarşı çıxır.

Həm Təhminə, həm Emma Bovari, həm Anna, həm də Bihter daxilən ziddiyyətli, narahat və qərarsız qadınlardır:

- Təhminə müstəqil qadın obrazı kimi təqdim olunsa da, məhəbbətdə zəiflik göstərir, emosional qərarlar verir. O, sevgi uğrunda qurban verən deyil, lakin sevgi qarsısında yenə də zəifləyir, daxili həssaslığını gizlədə bilməyir.
- Emma Bovari romantik xəyallarla gerçəkliyin toqquşmasından yaranan daxili böhrana düşür. O, romantik ədəbiyyatın təsiri ilə gerçək həyatla barışa bilmir, daim xəyal etdiyi həyatın arxasınca gedir.
- Bihter emosional diqqətsizlik və sosial basqılar altında öz real vəziyyətini qəbul edə bilmir. O da emosional olaraq sabit deyil, ailə həyatında istədiyi diqqət və sevgini tapmadığı üçün ailədən kənar münasibətə yönəlir.
- Anna Karenina sevgi və şəxsi xoşbəxtlik axtarışında sosial normalara açıq meydan oxuyur.

Hər dörd obraz cəmiyyətin qadına qarşı qoyduğu sərhədləri aşmağa çalışır: Təhminə ailə və ənənəvi qadın modeli anlayışlarına uyğun gəlmir; Emma Bovari evli qadın olduğu halda sevgi macəralarına atılır; Bihter də ailə daxilindəki soyuqluq və diqqətsizlik səbəbilə sosial və əxlaqi normanı pozur. Onlar üçün sevgi sadəcə ailə qurmaq deyil, ruhani bir ehtiyacdır. Eyni zamanda bu sevgi istəyi, onları faciəyə aparan bir gücə çevrilir: Anna, Emma və Bihter intihar edir, Təhminə isə psixoloji baxımdan sarsılır və sosial təcrid yaşayır.

**Nəticə / *Conclusion***

Bu dörd qadın obrazı fərqli coğrafiyalarda və dövrlərdə yaşamış olsa da, onların yaşadığı daxili ziddiyyətlər, cəmiyyətlə toqquşmaları və sevgiyə baxışları arasında dərindən oxşarlıqlar var. Onların hekayələri qadın psixologiyasının, sevgi və azadlıq axtarışının ədəbiyyatda necə bədii şəkildə ifadə olunduğunu göstərir. Bu obrazlar sadəcə fərdi talelər deyil, eyni zamanda patriarxal cəmiyyətlərdə qadın mövqeyinin ədəbi etiraz formalarıdır. Təhminə, Emma, Bihter və Anna obrazları patriarxal cəmiyyət modellərinə qarşı qadın etirazının bədii ifadələridir. Onlar qadın azadlığını, şəxsi xoşbəxtliyi və sevgi axtarışının ictimai və psixoloji təlatümlərini daşıyır. Müəlliflər bu obrazlar vasitəsilə qadının daxili aləmini və cəmiyyətlə toqquşmasını dərin psixoloji qatlarda təqdim edir.

**Ədəbiyyat / *References***


1. Anar. Əsərlər: [3 cilddə]. – Bakı: Nurlan, 2004.
2. Flaubert G. Madame Bovary. – Москва: Каро, 2022.
3. Laura Mulvey. Visual pleasure and narrative cinema, chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.amherst.edu/system/files/media/1021/Laura%20Mulvey%2C%20Visual%20Pleasure.pdf
4. Uşaklıgil H.Z. Aşk-ı Memnu. extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/ https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Halit-Ziya-Usakligil-Aski-memnu.pdf
5. Джудит Батлер. «Гендерное беспокойство. Феминизм и подрыв идентичности».
6. Л.Н.Толстой. Анна Каренина https://ilibrary.ru/text/1099/index.html


## Художественное выражение протеста в патриархальном обществе: анализ по гендерной перспективе образов Тахмины, Эммы Бовари, Бихтер и Анны Карениной


**Дилара Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: aliyeva.dilara724@yandex.ru



**Резюме.** В данной статье проводится сравнительный гендерный анализ женских образов в произведениях: «Шестой этаж пятиэтажного дома» Анара, «Госпожа Бовари» Гюстава Флобера, «Запретная любовь» Халита Зии Ушаклыгиля и «Анна Каренина» Льва Толстого. Сравнение этих персонажей позволяет глубже понять их трагические судьбы и различия в жизненных позициях в контексте различных социальных и культурных условий. В статье рассматриваются психологический мир героинь, их взгляды на любовь и семейные отношения, а также отношение общества к этим женщинам. Через образы таких персонажей, как Тахмина, Эмма Бовари, Бихтер и Анна Каренина, художественная литература предлагает интересные психологические портреты, раскрывающие патриархальные ценности и индивидуальную психологию в контексте женской свободы, любви и семьи.



**Ключевые слова:** психологический конфликт, общество, феминистская критика, модель свободной женщины